Xuraman HÜSEYN



### AĞ SAP

İlk dəfə
qara köynəyinin düyməsinin
ağ sapla tikilməyindən bildim
evinin qadın əllərindən ötrü darıxdığını...
Sonra mənə hədiyyə etdiyin
kitabların tozu və
saralmış vərəqlərdəki tənhalıq qoxusu
anlatdı həyatını...

Ürəyim sənindi
bilirəm, saçların, gözlərim, ruhum...
Amma daha çox əllərim sənin olsun
istəyirəm...

Saçını tumarlayar
süfrə bəzəyər sənə əllərim...
Bir də qara köynəyinə qara,
ağ köynəyinə ağ sapla tikər düymələri...

## Əllərin

Hər dəfə
əllərin toxunduqca yanaqlarıma
sildikcə göz yaşımı
utandım onlara əzab verməkdən

təbəssümün düşməni kədər imiş -
gündüzdən qorxan yarasa kimi gizlənər o.
Gülümsəsən
günəş doğsa qəlbində...

Gülə bilsən,
silahın qəhqəhələr olsa,
əliyalın düşmən kimi geri çəkilər
kədər

Gülüşüm gözlərimə qayıtdı
qaranquş öz yuvasına qayıdan kimi
əllərin unutsun göz yaşımı
sərçələr qürbət elləri unudan kimi...

### Hərdən xətrimə dəy...

Əllərimi sevirsən
bu dəqiqə baxışların
oğrun-oğrun üstünü örtmür deyə
elə soyuqdur əllərim
bir bilsən...

Gözlərimi sevirsən
isti sözlərinin içərisində
ürəyimi əridən
bir də mənə
"ceyran gözlüm" deməyindi.
Ceyranın gözlərini
bir az da yaxından görməni
istərdim kədərli olanda da,
bənzəyərmi gözlərimə.

Saçlarıma Zakiranə təriflər deyirsən
bəlkə, qısaldam ahım yerdə qalsın qoy...

Hərdən xətrimə dəy, küsməyi öyrənim
Ara ver təriflərə özümdən -
bezməyi öyrənim.
Bunun yaşlaşmağı, qocalmağı var,
Təriflərin təsəlliyə dönməsin sonra...

# Bu payız günlərində

### Pəncərəm

Pəncərəm günah iş görür
külək gəlir otağıma
tumarlayır jalüzləri.

Heç belə görməmişdim mən
ehtiraslı gecələri
üzüyola gündüzləri

Sevgi yatır pəncərəmdə -
gecə düşəndə yumulur
güllərin ləçək gözləri.

Açır günəş düyməsini -
göyün yaxasında qalır
buludların əl izləri...

### Təkliyin qonağı

Qaçıb bu boz şəhərdən
Atıb soyuq küçəni...
Yazırsan yenə təklik
Qonaq çağırıb səni.

Görən olmayıb yenə -
Hansı yolla getmisən?
Hansı ürəkdən keçib,
Hansı gözdən itmisən?

Orda yola verirsən
Zamanı - ayı, ili.
Yenə də tənha qalıb
Gözlərinin sahili.

Yediyin öz içindi,
İçdiyin də göz yaşın.
Yazırsan ki, göyərir
Öz içində baş daşın.

Bir də içki, siqaret -
Təkliyin süfrəsi bol.
Təklik udacaq səni,
Deyəmmirəm: yaxşı yol!

Oralar elə uzaq-
Yazanda yaz bunu da.
Kaş nə vaxtsa təkliyin
Özü sənu unuda...

### SARIŞIN PAYIZ

Qara buludlarla yaşmaqlandı günəş
yorğun göylərin
təri səpələndi yerə

etibarsız quşlar
günəşi axtarmağa getdi
qayğısız sərçələrin
səsi qarışdı
yağışın səsinə

sarışın payız
yenə küçədə dilənən uşağı
yırtıq ayaqqabılarından tanıdı...

### Sən gələndə

Payız yenə qızılı yarpaqları ilə gəlib
ömrümüzə
gözəl payız, nisgilli, qəmli payız...
Həkimdən qorxan
uşaq kimi boylanar göy üzündən günəş
sən gələndə...
Ruzi-bərəkətin, bar-bəhrən kimi
yağışın, küləyin də bol olar
şıltaq
ərköyün payız...
Öyrət mənə kədəri gizlətməyi
qəmə qalib gəlməyi
qızılı yarpağa dönüb qalib olmağı öyrət
qəmli könlümə...

Eh,gözəl payız, səndən sonra
Ağappaq qar yağacaq qara torpağa
Sonra yenə yaz gələcək
hər tərəf gül-çiçəyə bürünəcək
və sən hələ zamanını
gözləyəcək
səbrli olmağı öyrənəcəksən...

### Payızla söhbət

Yenə çiçəklər,
yarpaqlar solacaq,
yenə könlümüzə kədər dolacaq.
Çaxacaq şimşəklər,
yağacaq yağışlar,
əsəcək küləkər...
Yenə əl çəkməyəcək kədər,
Payız sorğu-suala tutacaq məni:
-Nə etdin, nə dəyişdi həyatında
bu bir ildə?
-Dəyişən kədərim,
artan göz yaşlarım oldu, deyəcəm.
Bir də...
Bir də sən gələndə
qərib ellərə uçan durna kimi
ömrümdən uçub gedən illər...

### YORĞUN AĞACLAR

Ağacların yorulmağını
saralıb yerə düşən yarpaqlar
daha yaxşı bilir.
Bu payız günlərində
yarpaqlar tərk edir ağacları.
Yarpaqlar,
siz də müvəqqətisiniz ağacların həyatında,
əbədi deyilsiniz sevgi kimi.
Onlar sizi dünyaya gətirir,
bəsləyir, böyüdür,

Soyuğa dözə bilmirsiniz,
neyləyəsiniz?
Gedin, gedin,
Yaz gələndə gələrsiniz,
Ağaclar yenə dünyaya gətirəcək,
Böyüdəcək sizi,
ağaclar
soyuqda, istidə
nazınızla oynayarlar,
Həmişə sevərlər sizi
Ata, ana övladını sevən kimi...

### Meh əssə...

Həmişə məni aldatdı ümidim
daha ona inanmaq
Istəmirəm.
Ondan əllərimi üzmüşəm artıq
İndi ipdən asılı qalıb ümidim.
Bir az meh əssə qopub düşəcək.
Hava haqqında məlumatda isə
Xəzri əsəcəyi deyilir...

*2021*

